**BARAT VÜSAL**

# BİR GÜLÜN TARİXİ



*Qənirə xanım Paşayevanın dünyasını dəyişdiyinə kim inanar ki?Mən də inanmıram! Bir vaxtlar Təbrizə babamız Şəhriyarın qəbrinə gül qoymaq üçün tələsdiyi kimi yenə də yəqin ki, tələsik səfərə çıxıb...*

*Bakıdan Təbrizə bir gül apardı,*
*Şəhriyar qəbrinin üstə qoymağa.*
*Yox, gül aparmadı, könül apardı,*
*Şəhriyar qəlbinin üstdə qoymağa!*

*Gedirdi nur səpib yola, deyirlər,*
*Bu da bir xidmətdi Vətən yolunda!*
*Mənzilə çatdırıb, belə deyirlər,*
*Gül onu gül kimi tutub əlində!?*

*Tez çatmaq gərəkdi Təbrizə o gün,*
*Apardığı o gül solmasın, deyə.*
*Qorğanıb üstündə elə əsirdi,*
*Ona heç nə, bir şey olmasın, deyə!*

*Yaxşı ki, tərkinə götürdü Xızır,*
*Belə tez olmayıb heç kim Təbrizdə.*
*Gözünü yum, dedi,aç, dedi, açdı,*
*Yumdu-Bakıdaydı,*
*Açdı-Təbrizdə!*

*Baba qəbri üsdə gedən bir zəvvar,*
*O gün yarı adam, yarı gül oldu.*
*Apardığı gülsə, yox -yox, könülsə,*
*Bir dəstə gül oldu, sığmadı Ərzə,*
*Ağ gül, qırmızı gül, sarı gül oldu!*

*...Əzəli zəvvardı Əzəldən bəri,*
*Əbədi yoçudu, yoldadı canı.*
*Könüldədi canı, güldədi canı!*
*Dayanar ürəyi, gül yaşamasa,*
*Baba qəbri üstə gül daşımasa!*

Ədalət.- 2023.- 6 oktyabr, №38.-S.7.